# Tarix yazan əbədiyaşar Lider

**Gəncədə "Tarix yazan əbədiyaşar lider" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin və elmi ictimaiyyətin nümayəndələri iştirak etmişlər.**

Tədbiri giriş sözü ilə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov açaraq bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir ki, bu gün Azərbaycan Respublikası iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilib. Bu gün Ümummilli Lider Heydər Əliyevin layiqli davamçışı Prezident İlham Əliyev Ulu Öndərin daxili və xarici siyasətini uğurla davam etdirməkdədir.

Sonra söz iştirakçılara verilmişdir. Akademik Fuad Əliyev çıxışında vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

YAP Gəncə Şəhər Təşkilatının sədri Bayram Aslanov, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov, Əməkdar həkim Mehman Rzayev və ADAU-nun İctimai fənlər kafedrasının müdiri, professor Azad Bayramov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərinin əvəzsiz olduğunu qeyd etmiş və bildirmişlər ki, dahi rəhbərin şərəfli ömür yolu gələcək nəsillər üçün əsl örnəkdir. Müasir tariximizi Heydər Əliyevdən ayrı təsəvvür etmək mümkün deyil. Vətən təəssübü, xalq sevgisi Ulu Öndərin həyat yolu, qayəsi idi. Mənsub olduğu xalqına xidmət etmək, Azərbaycanı dünyada layiqincə tanıtmaq bu dahi şəxsiyyətin əsas məqsədi olub.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.-2023.- 15 oktyabr, № 225- S.24.